Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №4, s. 9-18
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №4, pp. 9-18

# Humanitar elmlər

*UOT 821.111*

***S.H.Ələsgərova***
*Qərbi Kaspi Universiteti*
*solmazalasgerova@mail.ru*

## İNGİLİS DRAMATURGİYASININ FORMALAŞMA ŞƏRAİTİ VƏ PRİNSİPLƏRİ

***Açar sözlər:*** *İngiltərə, dramaturgiya, teatr tamaşaları, ədəbi cərəyanlar*

XVII əsrin əvvəllərində İngiltərədə mütləqiyyət rejimi və burjuaziya arasında mübarizə kəskinləşir. Humanist ideyaların böhranı bu dövr ədəbiyyat üçün xarakterik xüsusiyyətdir. XVIII əsrdə "maarifçilik" ideya cərəyanı kimi klassisizmin, realizmin və sentimentalizmin əsasını təşkil edir. İngilis maarifçiləri gündəlik məişət həyatına və xalq kütləri içərisindən olan qəhrəmanlara üstünlük verirlər. XIX əsrdə və XX əsrin ortalarına kimi İngiltərədə əyləncəli xarakterli tamaşaların üstünlük təşkil etməsi səbəbindən yüngül süjet və məzmun ingilis dramaturgiyasının uğuru hesab edilə bilməz. Müstəmləkəçi dövlətə çevrilən İngiltərədə müxtəlif səpkili ədəbi nümunələr yaranmağa başlayır. XIX əsrin sonu – XX əsrin əvvəlləri İngiltərədə yaranan müxtəlif ədəbi cərəyanlar arasında ideoloji mübarizələr aparılır. Pozitivizm, estetizm, realizm, dekadentçilik, neoromantizm ədəbi cərəyanları daha geniş yayılır. XX əsrdə ingilis dramaturgiyası yeni inkişaf mərhələsinə qədəm qoyur. Şekspirdən sonra ingilis dramaturgiyasında yaranan boşluğu Bernard Şou aradan götürür.

***С.Г.Алескерова***

## УСЛОВИЯ И ПРИНЦИПЫ ФОРМИРОВАНИЯ АНГЛИЙСКОЙ ДРАМАТУРГИИ

***Ключевые слова:*** *Англия, драматургия, театральные постановки, литературные течения*

В начале XVII века в Англии обостряется борьба между режимом абсолютизма и буржуазией. Кризис гуманистических идей – характерная черта литературы этого периода. В XVIII веке "просвещение" как идейное течение лежит в основе классицизма, реализма и сентиментализма. Английские просветители отдают предпочтение повседневной бытовой жизни и героям из народных масс. Легкий сюжет и содержание не могут считаться успехом английской драматургии из-за преобладания в Англии в XIX веке и до середины XX века пьес развлекательного характера. В Англии, ставшей колониальным государством, начинают появляться различные литературные образцы. Идеологическая борьба ведется между различными литературными течениями,

возникшими в Англии конца XIX – начала XX веков. Более широкое распространение получают литературные течения позитивизма, эстетизма, реализма, декадентства, неоромантизма. В XX веке английская драматургия вступает в новый этап своего развития. Пробел, возникший в английской драматургии после Шекспира, преодолевает Бернард Шоу.

***S.H.Alasgarova***

**THE CONDITIONS AND PRINCIPLES OF THE FORMATION OF ENGLISH DRAMA**

***Keywords:*** *England, dramaturgy, theatrical performances, literary trends*

At the beginning of the XVII century in England, the struggle between the absolutist regime and the bourgeoisie intensifies. The crisis of humanistic ideas is a characteristic feature of the literature of this period. In the XVIII century, the Enlightenment, as an ideological trend, formed the basis of classicism, realism, and sentimentalism. English enlighteners prefer everyday domestic life and heroes from among the masses of the people. The light plot and content cannot be considered the success of English drama due to the predominance of performances of an entertaining nature in England in the XIX and until the middle of the XX centuries. In England, which became a colonial state, literary examples of various styles began to appear. Ideological struggles are being waged between various literary trends that arose in England in the late XIX and early XX centuries. The literary trends of Positivism, Aestheticism, Realism, Decadentism, and Neoromantism are becoming more widespread. In the twentieth century, English drama entered a new stage of development. After Shakespeare, Bernard Shaw eliminated the gap in English drama.

XVII əsrin əvvəllərində İngiltərədə mütləqiyyət rejimi və burjuaziya arasında mübarizə kəskinləşir. Utopiyaya ümid bəsləyənlər inamlarını itirir, məyus olurlar. Humanist ideyaların böhranı bu dövr ədəbiyyat üçün xarakterik xüsusiyyətdir. “Fırtına”, “Qış nağılı” əsərlərində Şekspirin ruh düşkünlüyü, inamsızlığı açıq-aydın hiss olunur və son ümid kimi utopik cəmiyyətin təsvirindən istifadə edir.

Lakin humanizm ideyalarını davam etdirən dramaturqlar da tapılır. Mürtəce ədəbi cəbhə xalqın hüquqsuzluğundan söhbət açmır, humanistlər isə xalqın burjuaziya, mütləqiyyət və kilsəyə qarşı mübarizəsini təsvir edir. Bencamin Conson və Con Milton bu dramaturqlara misal ola bilər.

Şekspirin kiçik müasiri dramaturq, aktyor, teatr xadimi, alim Bencamin Conson komediya və faciələrində xalqın mənafeyini müdafiə edərək haqsızlıq və ədalətsizliyə qarşı çıxır. “Hər kəsin öz əxlaqı var”, “Hər kəsin öz əxlaqı yoxdur” adlı ilk pyeslərində nəsihətçilik çox güclüdür. İncəsənətin tərbiyəedici vəzifəsini vurğulayan, teatrı əyləncə hesab edənlərə qarşı çıxan pyesləri

"Sintiyanın məclisi", "Qafiyəquraşdıran" adlanır.

Şekspir ənənələrinin davamçısı kimi siyasi faciələrində respublika tərəfdarı olduğunu göstərir. "Seyan: onun süqutu", "Katilina: onun sui-qəsdi" adlı faciələrində Şekspirdən fərqli olaraq Conson Roma tarixini və adət-ənənələrini araşdırır və bu, surətlərin nitqində də özünü göstərir.

Satirik surətlərin köməyilə cəmiyyətdə mövcud olan çirkinlikləri, hərisliyi, tamahkarlığı tənqid edən "Voltene", "Episin, yaxud dönməz qadın", "Kimyagər", "Müqəddəs Varfolomey günündə yarmarka" adlı komediyalarını yazır.

Conson "yumor"u ingilis dramaturgiyasında mühüm bir hadisə idi. Tipik hadisə, tipik surətlərin yaradılması onun dramaturgiyasına məxsus xüsusiyyətdir. "Müqəddəs Varfolomey günündə yarmarka" komediyasında inqilabın yaxınlaşdığını yomen və plebeylərin danışığı əsasında müəyyən etmək olar. Conson ingilis cəmiyyətinin müxtəlif təbəqələrinin nümayəndələrini yarmarkada toplayaraq hər birinin iç üzünün açılması ilə xəlqi komediyanın yaranmasına səbəb olur [10, s.61-62].

Con Milton puritan ailəsində doğulub tərbiyə alan mütəfəkkir kimi şeir və poemalardan başqa həvəskar artistlər üçün "Arkadlılar" və "Komus" pyesləri, "Pəhləvan Samson" faciəsi ilə dramaturgiyaya müraciət edir [8, s.309-314].

Nəzmlə qələmə alınan "Komus" pyesində meşə və çəngəlliklər hakimi, əcinnə Komus meşədə azan qızı yoldan çıxarmaq istəyir, yarı insan, yarı heyvan iblis vədləri, hədələri, təklifləri ilə qızın iradəsini qıra bilmir. Müəllif ingilis İntibahının ənənələrinə müraciət etsə də, obrazları tərəddüd etmir.

Nəsihətçilik meylinin güclü olması puritanlıq elementlərinin artması ilə izah olunur. İnsan, insan həyatı və ağlının bütünlüklə təbiətdən asılılığı məsələsi Milton yaradıcılığının əsas xüsusiyyətlərindən hesab olunur [10, s.62-79].

XVIII əsrdə "maarifçilik" ideya cərəyanı kimi klassisizmin, realizmin və sentimentalizmin əsasını təşkil edir. Kapitalizmə keçid dövründə təhkimçiliyə və mütləqiyyətə qarşı mübarizəyə əsaslanan maarifçilər xalq kütlələrin savadlanmasından əlavə, tərəqqinin əldə edilməsi, elmi biliklərin yenidən qurulması, ədalətin bərpa edilməsinə səy göstərilməsi kimi məsələlərə də böyük əhəmiyyət verirlər. Dövlətin idarəsində "mütəfəkkir kral"ın olması ilə sinfi bərabərsizliyə, zülmə, təzyiqə qalib gəlməyi düşünürlər.

İngilis maarifçiləri gündəlik məişət həyatına və xalq kütləri içərisindən olan qəhrəmanlara üstünlük verirlər.

İngilis maarifçi ədəbiyyatının zirvəsi hesab edilən Henri Fildinq yaradıcılığında xüsusi yer tutan satirik komediyalar siyasi məzmunlu olduğuna görə, səhnələşdirilməsi qadağan edilir. "Məhəbbət müxtəlif maskalarda", "Faciələr faciəsi, yaxud Möhtəşəm cırtdanın həyatı və ölümü", "Qəhvəxana siyasətçisi, yaxud Hakim öz qurduğu tələdə", "Don Kixot İngiltərədə", "Paskvin", "1736-cı ilin tarixi təqvimi" və başqa satirik komediyalar bu janrın inkişafına təkan verir. Qanunsuz sərvət toplama, parlament seçkiləri zamanı

rüşvətxorluq, tüfeyli həyat, istismar olunma kimi problemlər ifşa obyektinə çevrilir [10, s.279-294].

XIX əsrdə və XX əsrin ortalarına kimi İngiltərədə əyləncəli xarakterli tamaşaların üstünlük təşkil etməsi səbəbindən yüngül süjet və məzmun ingilis dramaturgiyasının uğuru hesab edilə bilməz.

XIX əsrdə İngiltərədə meydana gələn romantizm ədəbi cərəyanı iqtisadi, siyasi və mədəni həyatın təsiri ilə meydana gəlir. Mütərəqqi və mürtəce (inqilabi və mühafizəkar) mövqe tutan yazıçılar fərqli fikirlər irəli sürür.

Yeniliklərlə barışa bilməyən, keçmişə qayıdış nəzəriyyəsini irəli sürən, inqilaba etiraz edən romantik yazıçılar mürtəce mövqe tutur. "Göl məktəbi" adlanan bu qolu təşkil edən Vordsvort, Kolric və Sauti leykistlər adlandırılır. Onlar hər cür tərəqqiyə qarşı çıxır, xristian dininin itaətkarlığını təbliğ edir, ilahi qüvvələrə inamı tərənnüm edirlər. Bu qrup romantiklərdən olan Sauti və Kolricin birlikdə yazdıqları "Robespyerin süqutu" faciəsində yakobinçilərin rəhbərləri lənətlənir, termidorçu əksinqilabi çevrilişə rəğbət bəsləyir, keçmiş idealizə edilir. Sauti əvvəllər hökumətin hərbçi siyasətinin əleyhinə olur, kapitalizmə qarşı çıxır, Fransa inqilabını tərifləyir, sonralar irticaçı olur. Mədhiyyə yazan Sautiyə kral saray şairi laureatı fəxri adı verilir. Kolric isə maarifçilik ideyalarından kənarlaşsa da, həmişə xalqa rəğbət bəsləyir və istismarın əleyhinə çıxır [1, s.40-45].

Feodalizm qalıqlarına qarşı çıxan, fəhlə sinfini müdafiə edən mütərəqqi romantiklər xalqın acı taleyini, yoxsulluğu, hüquqsuzluğu tənqid edirlər. İngiltərə teatrı tənəzzül dövrünü yaşamasına baxmayaraq, Bayron və Şelli dramaturgiya sahəsinə yeni formalar gətirir. Şekspirin pyesləri daha çox tamaşaya qoyulur və bu pyeslərin qəhrəmanlarını canlandıran Edmund Kin Romantizm dövrünün aktyoru idi.

Humanist ideyaları ilə tanınan demokratik ruhlu romantik Corc Qordon Noel Bayron hakimlərin riyakarlığını, əxlaq və mənəviyyatını tənqid edir. İngiltərə hökumətinin müstəmləkə siyasətini bəyənmir və təzyiqlərə məruz qaldığından bu ölkəni tərk edir. İnqilabi pafosda olan siyasi faciəsini - "Marino Falyeri" dramını, "Qabil" ("Kain") pyesini, "Manfred" fəlsəfi mənzum faciəsini, "İki foskari", "İngilis barları və Şotland icmalçıları (tənqidçiləri)", "Verner, yaxud Miras", "Sardanapal" əsərlərini qələmə alır [1, s.45-74]. "Marino Falyeri" dramında tarixi mövzu – Venesiya respublikasının başçısı Marino Falyerinin respublikaçıların zadəganlara qarşı hazırladıqları sui-qəsdə qoşulması təsvir olunur. Qeyri-mütəşəkkil üsyan və xalqa güvənməmək pislənilir. "İki foskari" dramı İtaliya mövzusundadır. "Manfred" faciəsində qəhrəman Alp dağlarında azır, cinayətkar keçmişini xatırlayaraq mənəvi əzab keçirir. Magiya sirlərinə və cəhənnəm qüvvələrinə müraciət edir, lakin kədərinin əlacı tapılmır. Əsərin sonunda onun ölümü və bağışlanmasının şahidi oluruq. "Qabil" pyesində hadisələr Cənnət yaxınlığında və Adəm, Həvva,

Qabil, Habil, Ada, Sella kimi personajların iştirakı ilə cərəyan edir. Bibliya motivləri əsasında yaradılan dini-mifik obrazlar tərcüməçi M.Təhmasib tərəfindən Müqəddəs Qurandakı adlarla əvəz edilir. Qabil ilk cinayətkar kimi deyil, köləliyə qarşı çıxan ilk qiyamçı kimi göstərilir. Varlığın mahiyyətinin əzabdan ibarət olduğunu vurğulayan Bayron kainatın sirlərini dərk etməyə çalışaraq mifik mövzulara meyl edir [3, s.8].

İkinci inqilabçı romantik ingilis sənətkarı Persi Bişi Şelli idi. "Azad edilmiş Prometey", "Çençi", "I Karl", "Yoğunbaldır müstəbid" adlı dramları ilə ingilis səhnəsinə yenilik gətirir. O, xalqın əsarətdən qurtarması üçün gərgin mübarizə aparmalı olduğunu, istibdada qalib gələn insan iradəsinin məğlubedilməzliyini ön plana çəkir. İnqilabçı respublikaçılara xas əlamətlər Herkulesin simasında cəmləşirsə, vəhşi, qəddar hakim obrazını Françeski Çençi adlı Roma feodalının timsalında təsvir edir. Şekspirin tarixi xronikalarına bənzəyən əsərdə XVII əsrdə İngiltərədə I Karlın hakimiyyəti dövründə feodal-mütləqiyyət zülmünün məhv edilməsi, xalqın azadlıq uğrunda apardığı mübarizə, vətəndaş müharibəsinin zəruriliyi vurğulanır. "Yoğunbaldır müstəbid" satirik dramını qədim yunan ədəbiyyatından tərcümə olunduğunu deyərək Aristofanın satirik-alleqorik əsərlərinə təqlid şəklində yazır. Ac donuzların buynuzlu öküzlərə dönərək vəhşi heyvanları təqib etməsi dedikdə, inqilabçı xalqın istismarçıları devirməsi fikrini irəli sürür.

Şelli və Bayron yaradıcılığının romantizmdən tədricən realizmə keçid etməsi, inqilabi məzmunu sonralar İngiltərənin kommunist tənqidçiləri tərəfindən mənimsənilir və inkişaf etdirilir.

İrland əsilli ingilis yazarı Oskar Uayld XIX əsrin sonları dekadent hərəkatın əsas prinsiplərini tərtib edir, nağıllar müəllifi, dramaturq, jurnalist, nasir, publisist, esseist kimi ziddiyyətli ədəbi fəaliyyətlə məşğul olur. Dünya ədəbiyyatının aforizm ustası hesab olunan yazıçı haqsızlığa qarşı barışmaz mövqe tutur, bədii-estetik düşüncələrinə görə yüksək qiymətləndirilir. Lakin məşhurluğunun zirvəsində olarkən əxlaqsızlıqda günahlandırılaraq həbs edilir. "İnam və ya nihilistlər" adlı ilk dramı ictimai-siyasi məzmunu ilə seçilir. "Padua şahzadəsi", "Florent faciəsi", "Müqəddəs fahişə və ya qaş-daşla örtülmüş qadın" pyeslərində yaradılan ziddiyyətlərin düyününü açmaq qeyri-mümkündür. Londonun "estetlər şahzadəsi" adlanan Oskar "İdeal ər", "Ledi Uindermirin yelpiyi", "Diqqətdən kənar qalan qadın" dramları ilə səhnədə uğur qazanır. O, bu pyeslərdə gedonizmi təsvir edir, kübar təbəqəyə məxsus məclislərdə əxlaqsızlığa rəğbət bəsləyir. Bibliya süjetli "Salomeya" pyesi səhnələşdirilmir. "Möcüzələr möcüzəsi" olan gözəlliyə pərəstiş edən ədib eybəcərlikdən qaçmağa çalışır, ömrünü yoxsulluq, ehtiyac içərisində, kimsəsiz oteldə başa vurur. Uayldın tərcüməçisi Kamran Nəzirlinin dediyi kimi, dünya ədəbiyyatının "Xoşbəxt şahzadəsi" qəlbimizi və beynimizi silkələmək gücünə malikdir [11, s.5].

Uayld ilə Bernard Şounun yaradıcılığını müqayisə edən tədqiqatçıların fikrincə, onlar reallığı elə təsvir edirlər ki, riyakarlıq, məntiqsizlik və ziddiyyətləri görmədiyimizə təəccüblənirik.

Müstəmləkəçi dövlətə çevrilən İngiltərədə müxtəlif səpkili ədəbi nümunələr yaranmağa başlayır. XIX əsrin sonu – XX əsrin əvvəlləri İngiltərədə yaranan müxtəlif ədəbi cərəyanlar arasında ideoloji mübarizələr aparılır. Pozitivizm, estetizm, realizm, dekadentçilik, neoromantizm ədəbi cərəyanları daha geniş yayılır.

Ənənəvi dəyərləri bərpa və tətbiq edən Uilyam Batler Yeyts İrlandiya ədəbiyyatında İntibaha təkan verən sənətkar olur. Teatra yeniliklər gətirilir, məzmun və mövzu baxımından ciddi irəliləyişlər əldə edilir. B.Şou, H.Cons, L.Gregory, A.Pinera, U.S.Moem, H.G.Barker, C.Qolsuorsi kimi dramaturqların ictimai-siyasi hadisələrə etiraz ruhlu yanaşma tərzi seçilir. Şoudan sonra sosial mövzulu dramlara meyil artır və o, İbsen yaradıcılıq metodundan istifadə etməyi tövsiyə edir.

H.G.Barker isə dram yazmaqdan əlavə, rejissor və aktyor kimi səmərəli fəaliyyət göstərir. O, XX əsrin əvvəllərində tamaşaçılara Şekspirin əsərlərini yeni quruluşda təqdim etməklə yeniliklərə imza atır.

Yaradıcılığının çox hissəsi Tənqidi realizm və Naturalizmlə bağlı olan Con Qolsuorsi "Gümüş mücrü", "Ani xəyal", "Qəribə adam", "Mübarizə", "Ədalət" və başqa ictimai problemlərə toxunan pyesləri ilə tanınır. "Müasirləri Conu bəxti gətirən varlı yazıçı adlandırırdılar" [7, s.235] Beynəlxalq Yazarlar Təşkilatının – PEN klubun yaradıcısı olan ədib pyesləri ilə dramaturgiyanın ideya və məzmun baxımından zənginləşməsinə kömək edir. Naturalizm və Tənqidi realizmlə bağlı olan yaradıcılığında ictimai problemlərə xüsusi diqqət yetirir, öz rahatlığı və təminatı fəhlələrlə rəhbər işçilər arasında münaqişənin təsvirinə mane olmur, həbsxanada islahatlar aparılmasına səbəb olur, qanunların mənasızlığını göstərir. Xeyriyyəçi kimi tanınan Con varlı və yoxsulların psixologiyasını düzgün şəkildə göstərərək cəmiyyətin rəğbətini qazanır. Nobel mükafatçısı qadın hüquqları, əmək haqqı, senzura kimi qanunların dəyişdirilməsi təklifini irəli sürür.

İngilis yazıçı Uilyam Somerset Moemin naturalizmə meyli, real hadisələrə istinad etməsi, konkret şəxsləri canlandırması, lakonikliyi, hətta nəsr əsərlərində çoxlu sayda dialoqlardan istifadə etməsi, dramaturgiya sahəsində otuzdan artıq əsərin müəllifi olması diqqət cəlb edən məqamlardandır [6, s.301-302]. "Şərəfli insan", "Penelopa", "Onuncu şəxs", "Zadəganlıq", "Əlçatmaz", "Qüsursuz centlmen", "Dəvə donqarı", "Xidmətlərə görə" və başqa maraqlı pyeslərinin gülüş mənbəyi həmin dövrə məxsus elitar cəmiyyətin mənəvi dəyərləri və xarakteri olan komediyalardır. Təsəvvürlərindən, xəyallarındakı xarakterlərdən yaxa qurtarmaqdan ötrü hər gün bir neçə saat yazan Moemin yaradıcılığını tənqidçilər XX əsrin sonlarında (Edvardian dövrünə xas dəyərlər

komediyası) öz aktuallığını itirmiş hesab edirlər.

"Angry Young Men" (Hirsli gənclər) ədəbi hərəkatının liderlərindən biri, ingilis dramaturqu, ssenarist Con Ceyms Osborn Britaniya teatrını dəyişdirən "Qəzəblə boylan" pyesini yazdıqdan sonra məşhurluq qazanır. Karyerasını aktyorluqla başlayan Osbornun "Komediant", "Dözülməz sübutlar", "İndiki zaman", "Amsterdamda otel", "İnsanların ən yaxşı sinfi" kimi pyesləri ilə ənənəvi ingilis melodramlarına son qoyulur, gerçəkliyi təsvir edən "yeni dalğa" dramları səhnələşdirilməyə başlayır, burjuaziya dəyərləri tənqid edilir. Onun qəhrəmanları baş verən haqsızlıqlara qarşı etiraz edən, fiziki və mənəvi əsarətdən bezən, qəzəblənən, nəhayət, kədərlənən obrazlardır.

"Angry Young Men" (Hirsli gənclər) ədəbi hərəkatının daha bir üzvü Şeyla Dileni on səkkiz yaşında qələmə aldığı "Balın dadı" pyesi ilə tanınır. Britaniya vətəndaşlarını, ailəsinin mənsub olduğu sosial qrupu – zəhmətkeşləri, onların həyatını, narazılığını, hiddətini göstərərək teatrda realizmə nail olmaq istəyir.

Modernizm ədəbi cərəyanının nümayəndəsi olan İrland yazıçısı Ceyms Coys üslub və dil baxımından orijinal tərz nümayiş etdirir, düşüncələrdəki xaotikliyi, təhtəlşüur ilə gerçəklik arasında oxşarlıq və fərqləri, insanın mənəvi aləmindəki anlaşılmazlıqları təsvir edir. "Dublinlilər" və "Uliss" əsərlərinin müəllifi kimi tanınan Coys "Sürgün olunmuşlar" pyesində insanlar arasında münasibətlərin saxtalığını, ictimai-sosial problemləri avtobioqrafik xüsusiyyətlərə diqqət etməklə çatdırır [9, s.369].

Coys mühitinin təsvirini verir, millətinin acınacaqlı vəziyyətini tənqid edir, lakin o, sərt münasibətlə qarşılaşır, uzun müddət yaradıcılığına qadağa qoyularaq tərcümə və tədqiq olunmur [5, s.4]. Dramaturq ölkədə cərəyan edən siyasi mübarizələrə qoşulmasa da, onlara qarşı soyuqqanlı münasibət bəsləmir, azad cəmiyyət arzusunu ifadə edir. O, "Dram və həyat" pyesində dramı mübarizə, təkamül, hər cür inkişaf hesab edir, iştirak etdiyimiz möhtərəm insan komediyasında həyatı olduğu kimi, həqiqətləri isə dəyişdirmədən təqdim etməyi lazım bilir. Müəllifin fikrinə görə, əsrlər ötsə də, həyat həqiqətləri, insan xisləti olduğu kimi saxlanılır.

İngilis ədəbiyyatında modernizm ədəbi cərəyanının banilərindən biri Devid Herbert Laurens şaxtaçıların həyatından bəhs edən əsərləri ilə əsarətə, asılılığa qarşı çıxır, ağır fiziki əməyin insan mənəviyyatına təsiri məsələsinə diqqət yetirir. "Cürətli iş", "Karusel", "Gəlin", "Devid" və başqa pyesləri ilə azad olmayan cəmiyyətin problemlərini qabardır. Riyakarlıq, qadağalar, təbiətlə harmoniyanın pozulması həyatı, sevgini və gözəlliyi məhv edir. Yeni həyat axtarışı ilə İngiltərəni tərk edən Laurens yaradıcılığı ocaq üzərində qanad açan sehrli quş feniks rəsmi ilə ifadə olunur. Onun kitablarının üz qabığında təsvir olunan mifoloji quş yanaraq yenidən küldən yaranır. Mükəmməlliyə can atan, öz "mən"ini axtaran insan və onun həyatı yanan quşun timsalında göstərilir.

Satirik, publisist və dramaturq Bernard Şou yeni tələb və yeni

problemlərə həsr olunan dramatik əsərlər yazmağın tərəfdarı idi, imperializmə qarşı mübarizə aparır. Satira və yumora üstünlük verərək yazdığı əsərlərə görə XX əsrin Molyeri adlandırılır. "Dul qadının evi", "Arvadbaz", "Xanim Uoerrenin sənəti" pyesləri uğur gətirmir. ABŞ-da səhnələşdirilən "Şeytanın şagirdi", "Kandid" pyesləri "Xoşagələn pyeslər" silsiləsinə daxil edilir. "İnsan və müharibə"də müharibə pislənir, "Taleyin sevimlisi"ndə Napoleonun dili ilə ingilislər ifşa edilir. "Puritanlar üçün üç pyes" silsiləsindən "Sezar və Kleopatra", "İblis şagirdi", "Kapitan Brassbaundun müraciəti" adlı pyeslər qələmə alınır. Humanist dramaturq "Bəşər və fövqəlbəşər", "Mayor Barbara" adlı əsərlərini də yazır. Güclü xarakterli qadın obrazları yaradaraq cəmiyyətdə onların rolunu müəyyənləşdirməyə çalışan dramaturq real həyata istinad edir. Onun fikrinə görə, yoxsulluğun aradan qaldırılması üçün savadsızlığa son qoymaq vacibdir. Fəhlə sinfinin birliyi nəticəsində cəmiyyəti xilas etmək olar. "Evlənmə", "Mezalyans", "Fanninin ilk pyesi" ailə-məişət mövzusunda yazılır. "Ürəklərin parçalandığı ev" pyesində müharibə ərəfəsində heç bir işlə məşğul olmayan Avropa həyatı göstərilir. "Mafüsailə doğru" dramında öz həyatlarını məhv edən insanlar tənqid edilir.

1925-ci ildə Nobel mükafatı laureatına, 1938-ci ildə "Piqmalion" pyesinin motivləri əsasında çəkilmiş filmə görə Oskar mükafatına da layiq görülür. "Alma arabası"nda burjua cəmiyyətində parlament ifşa edilir, "Acı da olsa həqiqət"də müharibədə darmadağın edilmiş insan taleləri göstərilir [2, s.53-59].

Erik Bentli "Dramın həyatı" kitabında "Şou üçün süjetin məğzi onun süniliyindədir" [4, s.26] deyərək həmin dövrdə naturalistlərin süjetdən imtina etdiklərini nəzərdə tutur.

XX əsrin daha bir irland dramaturqu Şon O'Keysi "Oxun kölgəsi", "Yuno və tovuzquşu", "Kölgə və ulduzlar", "Başlanğıcın sonu", "Bənövşəyi kül", "Mənim üçün qırmızı qızılgüllər", "Xoruz-dendi" və başqa pyeslərini qələmə alır. İlk olaraq satirik tragikomediya, sonra mistik mənəvi dram, həyatının sonunda isə fantastik komediya janrına müraciət edir. Üç pyesi səhnələşdirildikdən sonra böyük qalmaqala (milliyyətçilikdə sosializmin gizli qalması fikrinə görə tamaşa zamanı iğtişaş) və dramaturqun İrlandiyanı həmişəlik tərk edib İngiltərəyə köçməsinə səbəb olur. Təqiblər səbəbindən o, bütün ömrü boyu sürgündə qalmalı olur. Teatr olmadan belə pyeslərini yazaraq çap etdirir və tragikomediya ustası kimi tarixə həkk olunur. Altı yaşında atasını itirməsi, gözlərinin yaxşı görməməsi ucbatından təhsil ala bilməməsi, beton qarışdıran fəhlə olması onun dramaturq istedadının üzə çıxmasına mane olmur. İnsan əzablarına satirik gülüşlə reaksiya verir və gerçəkliyi bədiilədirmək qabiliyyətini nümayiş etdirir.

XX əsrin ikinci yarısında dramaturgiya sahəsində yeniliklərə imza atan A.Uesker, C.Osborn, C.Arden və digər sənətkarlar dövrlərinin problemli məsələlərinə satirik və naturalist yanaşma ilə seçilir. Absurd teatr ənənələrinin

ingilis ədəbiyyatına nüfuzu bu dövrə təsadüf edir. H.Pinter, N.Simpson, A.Eykborn kimi yazarların yaradıcılığında fərqli istiqamət müşahidə edirik.

Yəhudi ailəsindən olan ingilis dramaturqu Arnold Uesker əlli pyes müəllifi kimi tanınır. Dünya səhnələrində oynanılan və iyirmi dilə tərcümə edilən dramlarında müasir cəmiyyətdə yadlaşma problemi, sosialist ideyaların nəsihətamiz izahı, stalinizmin ifşası, istənilən ideologiyalara skeptik münasibəti açıqlanır, yəhudi ənənələrinə qayıdış mövzusuna müraciət edir. "Mətbəx", "Arpa ilə toyuq supu", "Mən Yerusəlimdən danışıram", "İlin dörd fəsli", "Yaşlılar" və başqa pyesləri ilə tənqidçilər arasında kəskin fikir ayrılıqlarına səbəb olur. Antisemitizmə həsr olunan "Əgər Tanrı istəsə" əsəri yəhudi mövzusunun digər aspektini əks etdirir. Mətbuat işçilərini ifşa edən "Jurnalistlər" dramı mübahisələrlə qarşılanır.

İngilis dramaturgiyasının görkəmli nümayəndələrindən biri olan Tom Stoppardın (Tomaş Ştraussler) ilk uğuru "Rozenskranç və Qildenstern ölüdürlər" əsəri Şekspir dühasına olan sevgidən irəli gəlir. "Hamlet" faciəsində diqqəti cəlb etməyən obrazlar bu pyesdə öz adlarını belə çaşaraq dəyişik salan ağılsız dostlar kimi təqdim olunur. "Hoppananlar", "Gecə və gündüz", "Pillələrlə enən ustad", "15 dəqiqəlik Hamlet" "Həqiqi varlıq" və başqa pyeslərinin orijinal tərzi və üslubu ilə məşhurluq qazanır. "Səyahət", "Gəmi qəzası", "Sahilə atılmışlar" adlı üç pyesin birləşməsindən yaranan "Utopiya sahili" trilogiyası XIX əsr Rusiya tarixindən və rus ziyalılarından bəhs edir. Stoppard insanları gələcəyi düşünməyə çağırır və ümid edir ki, əsərlərinin köməyilə dünyanı dəyişməyə nail olacaq.

Bu dövrdə dramaturgiyanı ənənəvi istiqamətdə inkişaf etdirən nümayəndələr də fəaliyyət göstərir. Piter Ustinovun fantastika ilə zəngin satirik komediyaları, Fray Kristoferin poetik dramları, Piter Şefferin kommersiya məqsədilə yazdığı pyesləri də həmin dövrün mənzərəsini göstərir.

XX əsrin sonlarında ingilis dramaturgiyasında daha çox feminist motivlər, rüşvətxorluqla mübarizə, qaradərili insanların taleyi, seksual azlıqların problemləri qabardılır.

Məşhur ingilis dramaturqu Alan Eykborn 72 pyes və uşaqlar üçün 20-dən çox kitab müəllifi kimi tanınaraq müxtəlif mükafatlar qazanır. Teatrda yaxşı rol oynamaq istəyən Alan dostunun məsləhəti ilə pyesləri özü yazmağa qərar verir. "Kvadrat pişik", "Hamıdan sonra sevgi", "Atamla tanışlıq", "Yalnız absurd çöhrə", "Vahid rəqəm", "Sizin yerinizdə olsam" və digər dramları səhnələşdirilərək həm auditoriyanın, həm də tənqidçilərin yüksək qiymətini alır. Onun komediya və farsları ailə və sinfi konfliktlərə həsr olunur, onların qorxu və zəif cəhətlərini işıqlandırır. Əsasən orta sinif ingilis ailələrinin həyat tərzini təsvir edən dramaturq rejissor kimi də uğur qazanır.

XX əsrdə ingilis dramaturgiyası yeni inkişaf mərhələsinə qədəm qoyur, "yeni dalğa" dövrünün nümayəndələrinin fəaliyyəti nəticəsində teatr

səhnələrində, həmçinin tamaşaçılar arasında canlanma müşahidə olunur. Şekspirdən sonra ingilis dramaturgiyasında yaranan boşluğu Bernard Şou aradan götürür. Satirik mövzulu dramların yaranması, cəmiyyətin azadlığı probleminin qabardılması, totalitar rejimli dövlətlərdə insanların əsarətə, zorakılığa məruz qalmasının kəskin ifşası, sosial-ictimai münasibətlərin tənqidi diqqətimizi cəlb edir. V.Q.Babenkonun qənaətinə görə, bu dövrdə dram, faciə və satirik komediya əsas janrlar olur, ilk dəfə B.Şounun yaradıcılığında rast gəldiyimiz janrların yaxınlaşması, qarışması hadisəsi baş verir. Ənənəvi dramatik janrlar yenidənqurmaya uğrayır, bir-birinə təsir edərək qarşılıqlı şəkildə nüfuz edirlər. Məhz janrın müəyyənləşməsi mümkün olmadığına görə çox zaman ümumi termindən istifadə edilir: “pyes” [12, s.5].

XX əsr ingilis dramaturgiyasında psixologizmə meyil artır. Həyat və cəmiyyət haqqında düşünən dramaturqlar dünya həqiqətlərini axtarır, yalanı qəbul edərək özlərini aldatmaq istəmirlər. Yaşadıqları dövrə məxsus problemlərin satira atəşinə tutulmasının məqsədi bəşəriyyətin həqiqət axtarışına cəlb edilməsidir. Təbliğ olunan ideyaların əhəmiyyəti öz aktuallığını itirmir.

## ƏDƏBİYYAT


1. *Ağabəy G.* XIX əsr dünya ədəbiyyatı tarixi. Bakı: Elm və təhsil, 2013, 272 s.
2. *Ağabəy G.* XX əsr dünya ədəbiyyatı tarixi. Bakı, 2012, 135 s.
3. *Bayron C.Q.* Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 224 s.
4. *Erik Bentli.* Dramın həyatı. Bakı: ADMİU, 2019, 272 s.
5. *Əzimova A.* Ceyms Coysun dünya ədəbiyyatında mövqeyi və rolu: Metodik tövsiyə. Bakı: Nurlan, 2009, 64 s.
6. *Xəlilov Ə.* Dünya ədəbiyyatı: Mühazirələr, ədəbi oçerk və portretlər: 7 cilddə, IV c., Bakı: Araz, 2012, 566 s.
7. *Xəlilov Ə.* Dünya ədəbiyyatı: Mühazirələr, ədəbi oçerk və portretlər: 7 cilddə, V c., Bakı: Araz, 2012, 616 s.
8. *Xəlilov Ə.* Dünya ədəbiyyatı: Mühazirələr, ədəbi oçerk və portretlər: 7 cilddə, II c.: İntibah dövrü və XVII-XVIII əsr dünya ədəbiyyatı. Bakı: Bilik, 2013, 536 s.
9. *Məmmədova C.* XX əsrin əvvəllərində ingilis dramaturgiyasında sosial-ictimai problemlər mövzusu // Filologiya məsələləri, 2013, №7, s.369-377
10. *Novruzov T., Nəzərova A.* XVII-XVIII əsrlər Avropa ədəbiyyatı. Bakı: Orxan, 2018, 530 s.
11. *Uayld O.* Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2013, 464 s.
12. *Бабенко Б.Г.* Драматургия современной Англии. Москва: Высшая школа, 1981, 144 с.


Redaksiyaya daxil olub 26.10.2022